**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 144 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsindən Xanlıqlar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədzadə Şöhrət Əsəd oğlu 2015-ci il yanvarın 8-də Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adı çəkilən seçki dairəsi dairə seçki komissiyasının müvafiq qərarından narazı qaldığını bildirmiş, seçkilər günü həmin bələdiyyəni əhatə edən seçki məntəqələrində səsverməyə gəlmiş seçicilərin imzalarının yoxlanılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək ərizəçinin müraciəti Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş müddətdə və qaydada araşdırılmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, ərizəçi Ş.Ə.Məmmədzadə 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Xanlıqlar bələdiyyəsini əhatə edən seçki məntəqələrində seçkilər günü səs verməyə gəlmiş seçicilərin imzalarının ekspertizadan keçirilməsi ilə bağlı 2014-cü il dekabrın 26-da adıçəkilən seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, həmin müraciətə 2014-cü il dekabrın 27-də mahiyyəti üzrə baxılmış və onun təmin edilməməsi barədə müvafiq dairə seçki komissiyası tərəfindən 22/60 saylı qərar qəbul edilmişdir.

Ərizəçi Ş.Ə.Məmmədzadənin müraciətinin araşdırılması zamanı 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 26, 27 və 28 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, Xanlıqlar bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş namizədlərin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izahatlarına və tərtib edilmiş aktlara əsasən müəyyən edilmişdir ki, mübahisələndirilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif siyasi partiyaları təmsil edən və öz təşəbbüsü ilə müşahidə aparan müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirilmişdir.

Belə ki, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin əhatə etdiyi 26, 27 və 28 seçki məntəqələri məntəqə seçki komissiyalarının üzvləri M.T.Hüseynov, X.S.Xudaverdiyev, X.R.Balayev, R.V.Həsənov, B.T.Salmanov, İ.X.Vəliyev, M.Z.Məmmədova, F.O.Əliyev, C.E.Şahvələdov, Z.A.Məmmədov, A.İ.Qorçuyev, Ə.Q.Vəliyev, Xanlıqlar bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş digər namizədlər H.M.Həsənov, R.Ş.Əliyeva, N.A.Mehdiyev, M.V.Vəliyev, M.M.Heydərov, X.N.Mehdiyev və R.Z.Aslanov, müşahidəçilər S.V.Şahbazov, Q.Q.Mustafayev, T.İ.Kosayeva, K.P.Əşrəfov, Ə.M.Sarıyev, İ.T.Qədimov, A.T.Nəsibov, R.Z.Aslanov, M.İ.Nəsibov və digərləri yazılı izahatlarında bildirmişlər ki, seçkilər günü seçki məntəqələrində səsvermə, o cümlədən seçki subyektləri tərəfindən bütün seçki hərəkətləri seçki qanunvericiliyində nəzərdə tutulmuş qaydalara uyğun olaraq çoxsaylı müşahidəçilərin müşahidəsi ilə həyata keçirilmiş, müvafiq seçki komissiyalarına hər hansı qanun pozuntuları barədə heç bir şikayət daxil olmamış, seçkilərin təşkili və keçirilməsi, habelə səsvermənin nəticələri ilə bağlı hər hansı qanun pozuntusuna rast gəlməmiş,

səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, eyni zamanda hər bir seçici şəxsən səs vermişdir.

Bundan başqa, araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmiş və müraciətdə qeyd edilən halların təsdiq edilməsi ilə əlaqədar əlavə dəlillər təqdim etmək hüququnun olması nəzərinə çatdırılmışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 22/60 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsindən Xanlıqlar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədzadə Şöhrət Əsəd oğlunun 8 yanvar 2015-ci il tarixli 144 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 22/60 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |